Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Azərbaycanın Ermənistanı tam əzəcəyinə dair İrəvana çoxsaylı xəbərdarlıqlar edildi - işğalçı ölkənin KTMT ümidi də "suya düşdü"...

**Sirr deyil ki, son illərdə Ermənistan Azərbaycanla sərhəddə atəşkəsi pozmaqla üzvü olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) da Dağlıq Qarabağ münaqişəsinə cəlb olunmasına çalışır. Amma indiqyə qədər bu istiqamətdə düşmənin riyakar addımları birmənalı şəkildə fiaskoya uğrayıb.**

Qurum özü də dəfələrlə bəyan edib ki, Qarabağ məsələsi Azərbaycanın daxili işi olduğundan, məsələyə hansısa formada müdaxilə edə bilməz. Bu durumda Ermənistan Azərbaycan Silahlı Qüvvələrini sərhəd zonasında təxribata cəlb edərək, guya ərazisinə təhdid yarandığını göstərmək istəyir. Amma indiyə qədər qeyd edilən xüsusda baş verənlər Ermənistanın bu məkrli addımlarının da iflası ilə nəticələnib.

İyulun 12-də Tovuzda baş verənlər isə düşmənin hələ də prosesdən lazımı nəticələr çıxara bilmədiyini göstərir. Bu mənada təsadüfi deyil ki, cəbhə təxribatlarından dərhal sonra Ermənistanın xarici işlər naziri Zöhrab Mnatsakanyan KTMT-nin baş katibi Stanislav Zasla telefon danışığı aparıb. Danışıqların mövzusu açıqlanmasa da, Ermənistanın KTMT-ni münaqişəyə cəlb etməyə çalışdığı şübhəsizdir. Xatırladaq ki, cəbhə olaylarından sonra Stanislav Zas Azərbaycanla Ermənistan arasındakı gərginliklə əlaqədar KTMT-nin Daimi Şurasının təcili iclasını çağırdı. Amma bu dəfə də erməni tərəfinin sevinci gözündə qaldı. Ermənistanın cəbhə olaylarını qurumun iclasında müzakirəyə çıxarmağa hazırlaşdığı bir vaxtda məlum oldu ki, KTMT Daimi Şurasının fövqəladə iclası qeyri-müəyyən vaxta qədər təxirə salınıb. İclas tərəflər arasında konsultasiya aparılması, həmçinin müzakirə formatının dəqiqləşdirilməməsi ucbatından təxirə salınıb. Bu xəbər artıq Ermənistanda şok effekti yaradaraq qurumun növbəti dəfə İrəvanı yalnız buraxması kimi təqdim edilir. Məsələni şərh edən erməni siyasi şərhçi Artyom Yerkanyan bildirib ki, Ermənistanın KTMT-yə ümid bəsləməsi özünü aldatmaqdan başqa bir şey deyil:"Son proseslər fonunda bu bir daha öz təsdiqini tapdı. Söhbət ondan gedir ki, Ermənistanın təşəbbüsü ilə KTMT-nin Daimi Şurasının fövqəladə iclası baş tutmalı, iclasda Tavuş vilayətində sərhəd insidentinə qiymət verilməli idi. Lakin iclas toplanmayıb. Halbuki, Ermənistan parlamentinin sədri Ararat Mirzoyan məktubla KTMT ölkələrinə müraciət edib. Bundan başqa, Ermənistan xarici işlər naziri Zöhrab Mnatsakanyan və KTMT baş katibi Stanislav Zas arasında telefon danışığı baş tutub. Amma KTMT növbədənkənar iclası təxirə salır, Moskva təmkinliliyə çağırış edir. KTMT göstərir ki, məsələyə qarışmaq niyyətində deyil və bu qurumda yenə Azərbaycan, üzv olmasa belə, Ermənistandan daha güclü mövqeyə sahibdir".

Beləliklə, aydın görünür ki, Ermənistan-Azərbaycan dövlət sərhədi boyunca müxtəlif təxribatlar törədən, mülki əhalini atəşə tutan İrəvan bu kimi təxribatçı vasitələrlə KTMT-ni münaqişəyə cəlb etmək istəyir. Amma yenə öz məkrli niyyətinə çatmır. əksinə, bir daha bəlli olur ki, KTMT-yə üzv dövlətlərlə Azərbaycan arasında, hərbi-siyasi və hərbi-texniki əməkdaşlıq da daxil olmaqla sıx əməkdaşlıq münasibətləri mövcuddur. Xüsusilə Rusiya ilə Azərbaycan arasında mövcud olan əməkdaşlıq erməni tərəfi üçün ciddi narahatlıq mənbəyidir. Bu fonda Moskva dəfələrlə bildirib ki, Dağlıq Qarabağ münaqişəsinin KTMT-yə heç bir aidiyyəti yoxdur. Təhlükəsizlik və müdafiə sahələri üzrə rusiyalı ekspert Qriqori Trofimçuk da məsələyə məhz bu prizmadan yanaşır:"Ermənistan KTMT-yə həmişə ümid edə bilər, belə olmasaydı, Ermənistan nəinki Qarabağ problemi, həmçinin Türkiyə ilə müharibəsi olardı. Amma Ermənistan öz ərazi bütövlüyünə xələl gəldiyi halda bu ümidi bəsləyə bilər. Rusiya və KTMT amili olmadan hər şey daha asan, lakin təhlükəli şəkildə inkişaf edərdi və bunu mübahisə etmək çətindir". Onun sözlərinə görə, KTMT hər şeyi çox yaxşı başa düşür və adekvat qiymətləndirmə verəcək:"Bir şeyi aydın şəkildə qeyd etmək lazımdır - KTMT Azərbaycanla müharibə etməyəcək". Elə rusiyalı hərbi-siyasi ekspert, ehtiyatda olan polkovnik Aleksandr Tixanski də bildirir ki, indiki halda Ermənistan üçün KTMT heç bir ciddi addım atmayacaq:"Çünki Tovuzda baş verənlər açıq-aydın Ermənistanın daxilində baş verən prosseslərin məntiqi sonluğudur. Nikol Paşinyan hazırki durumda ölkə daxilində baş verən hadisələrdən fikri yayındırmaq üçün ən alçaq yalanlara və təxribatlara əl atmağa hazırdır. KTMT üzvləri də artıq Ermənistanın məkrli planından xəbərdardır. Ermənistan hakimiyyəti KTMT-ni uşaq bağçası zənn edib yalan dolu məlumatlar yayır. KTMT heç bir ciddi addım atmayacaq. Bir-iki adi bəyanatla kifayətlənəcək. Ona görə ki, Ermənistan müdafiə nazirinin "faktları" gülüncdür. Necə olur, Bakı Qarabağ istiqamətində yox, Ermənistan ərazisinə hücum edir? Bakının əsas amalı işğal olunmuş Qarabağı qaytarmaqdır. Ermənistana hücum isə tam olaraq ermənilərə sərf edən ssenaridir. Özü də Azərbaycan ən güclü ordulardan birinə malik dövlət ola-ola, guya köhnə UAZ ilə hücuma keçib... KTMT baş katibi Stanislav Zas uşaq deyil bu erməni hiyləsinə aldansın. KTMT müdaxilə etməyəcək. İzah edim. Ermənistan istisna olmaqla, təşkilata üzv ölkələr bunu ikitərəfli - Ermənistan və Azərbaycan arasında münaqişə kimi tanımır. Hərbi əməliyyatların harada baş verməsindən asılı olmayaraq, bu, Dağlıq Qarabağ ətrafında münaqişədir. Özü də orada Qazaxıstan var, hansı ki, Azərbaycanın qardaşı kimi KTMT-də çıxış edir". Onun sözlərinə görə, sazişlər KTMT-nin bu bölgədəki qarşıdurmaya müdaxiləsini istisna edəcək şəkildə bağlanıb. Təşkilat Ermənistana yardım göstərməyəcək: "Üstəlik, İrəvana daim xəbərdarlıq edilib ki, Azərbaycana qarşı heç bir təcavüzkar hərəkətlər edilməməlidir. Kəskinləşmənin başladığı yerlərdə - təmas xəttində, ölkələr arasındakı sərhədə heç bir fərq olmayacaq. Bundan əlavə, KTMT baş katibi Stanislav Zasın təşkilatın baş katibi təyin olunmasına mane olan Ermənistan barədə yaxşı, yeni bir xatirəsi var". Bu durumda Ermənistanın KTMT planlarının artıq iflasa uğradığını demək olar.

Yaranmış vəziyyətdə Ermənistanı qorxudan həm də odur ki, KTMT və Rusiya yardımı olmadan Azərbaycan hərb müstəvisində Ermənistanı əzəcək. Özü də Azərbaycan ən yüksək səviyyədə bunun anonsunu verib. Məsələnin bu tərəfinə toxunan Prezident İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında qeyd edib:"Beynəlxalq arenada Ermənistan, demək olar ki, bütün dayaqlarını itirməkdədir. Daxili vəziyyət kifayət qədər gərgindir. Vəd olunan dırnaqarası çiçəklənmə, artıq hər kəs tərəfindən başa düşülür ki, xülyadır, yalandır. Əlbəttə ki, məlum hadisə ilə bağlı Ermənistan rəsmi orqanlarının açıqladığı məlumat yalanın növbəti əlamətidir. Bu məlumatda onlar məsuliyyəti Azərbaycanın üzərinə yıxmaq istəyirlər. Halbuki, buna heç bir əsas yoxdur və bir daha demək istəyirəm ki, - bütün müstəqil ekspertlər bunu təsdiq edə bilər, - heç bir əsas olmadan bizim hərbi postumuza artilleriya zərbəsi endirilib. Məhz bunun nəticəsində bizim hərbçilərimiz həlak olub. Onların gücü ona çatır ki, ancaq mülki əhalini atəşə tutsunlar, ya da ki, qəflətən bizim hərbi postumuza atəş açsınlar. Bunu da onlar etdilər və bir daha öz çirkin və məkrli mahiyyətlərini ortaya qoydular. Mən bir daha demək istəyirəm ki, düşmənə adekvat cavab verilib. Hərbçilərimizin qisası alınıb, bundan sonra da alınacaqdır. Hərbçilərimizin, şəhidlərimizin qanı yerdə qalmayıb və qalmayacaq. Biz bütün imkanlardan istifadə edib özümüzü qoruyacağıq və düşmənə yenidən onun öz yerini göstərəcəyik". Bu fikirlərdən də aydın görünür ki, Azərbaycan düşməni cəzasız buraxmaq niyyətində deyil. Ermənistanın hamilərinin ondan imtina etdiyi bir vaxtda isə Azərbaycanın cavab zərbələri düşmən üçün daha sarsıdıcı olacaq.

Digər tərəfdən, burada beynəlxalq ictimaiyyət onu da nəzərə alır ki, bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Gürcü hərbi ekspert, politoloq Vaxtanq Maisaya isə "Rezonansi" qəzetinə müsahibəsində bildirir ki, nəinki Rusiya, indi Qərb də Ermənistanı yalnız buraxıb və İrəvan bunu nəzərə almalıdır:"Minsk Qrupunda təmsil olunan dövlətlər bölgəyə lazımı diqqət ayırmır. ABŞ-dakı çətinliklər və Qərbin məsələyə az cəlb olunması müəyyən formada eskalasiyanın yaranmasına təsir edib". Maisaya indiki qarşıdurmanın Dağlıq Qarabağ münaqişəsində qeydə alınan əvvəlki toqquşmalardan fərqləndiyini deyib:"2016-cı ilin aprelində dördgünlük müharibə Dağlıq Qarabağdakı separatçı bölgə ilə bağlı idi. İndi isə qarşıdurma dövlətlərarası münaqişəyə çevrilib. Toqquşmalar bilavasitə dövlət sərhədində baş verir və genişmiqyaslı qarşıdurmaya çevrilə bilər. Qonşu dövlətlər arasında birbaşa müharibə baş versə, bu, Gürcüstana yaxşı heç nə vəd etməyəcək". Politoloq Azərbaycan və Ermənistan arasında qarşıdurmanın regional xarakter alacağı, məsələyə Rusiya və Türkiyənin də cəlb olunacağını istisna etməyib. Amma onu da qeyd edir ki, Rusiya Ermənistana əvvəlki dəstəyi göstərmir, Türkiyə isə birmənalı şəkildə Azərbaycanın yanında yer aldığını bəyan edir. Bu halda güclü Azərbaycan ordusu Ermənistanı daha rahat əzmək imkanı qazanır. İndi yaranmış vəziyyətdə Ermənistan cəbhə təxribatlarını davam etdirəcəyi halda Azərbaycanın onu qısa müddətdə daha sarsıdıcı zərbələrə "qonaq" edəcəyi də qaçılmaz sayılır.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**